**Səfər Həsən oğlu PURHANİ i.e.d. prof.**
Qərbi Kaspi Universiteti
E-mail:sefer.purhani@wcu.edu.az

**Ənvər Akif oğlu AĞAYEV**
Qərbi Kaspi Universiteti, magistr
E-mail:anvar.aghayev@gmail.com

# QARABAĞIN TURİZM TARİXİ

**Xülasə**

Azərbaycan Respublikası Cənubi Qafqaz regionunda əlverişli coğrafi mövqeyi, zəngin təbii ehtiyatları və milli-mədəni müxtəlifliyi ilə həmişə turizm sahəsində cəlbedici istiqamətlərdən biri kimi seçilmişdir. Lakin XX əsrin sonları və XXI əsrin əvvəllərində Ermənistan tərəfindən bölgədə həyata keçirilən separatçı və hərbi təxribatlar ölkənin ümumi sosial-iqtisadi inkişafına, o cümlədən turizm sektoruna əhəmiyyətli mənfi təsirlər göstərmişdir. Bu məqalədə 1990–2020-ci illər ərzində Ermənistanın işğalı altında olmuş Dağlıq Qarabağ və ona bitişik 7 inzibati rayonun postmünaqişə dövründə turizm potensialının inkişafı məsələləri araşdırılmışdır. Qeyd edilməlidir ki, Dağlıq Qarabağ hələ Sovet İttifaqı dövründə yalnız Azərbaycanın deyil, ümumilikdə Cənubi Qafqazın mühüm beynəlxalq turizm mərkəzlərindən biri hesab olunurdu. 2020-ci ilin sentyabrında başlanan və Azərbaycan Ordusunun uğurla həyata keçirdiyi əks-hücum əməliyyatı nəticəsində ərazilərin azad olunması bölgənin turizm imkanlarının yenidən dəyərləndirilməsi üçün əsaslı zəmin yaratmışdır. Məqalədə həmçinin bölgədə turizm infrastrukturunun bərpası, müxtəlif turizm növlərinin inkişaf etdirilməsi və bu istiqamətdə mövcud olan imkanlar təhlil olunmuşdur.

**Açar sözlər**: Turizm; Qarabağda İşğal Sonrası Turizm; Azərbaycan Respublikası, Ermənistan İşğalı.

**UOT:** 338
**JEL:** F-52
**DOI:** https://doi.org/ 10.54414/ XTNZ9482

## Giriş

2020-ci il noyabrın 10-da Ermənistanın kapitulyasiya sənədinə imza atması ilə başa çatan və Azərbaycanın tam qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi, Cənubi Qafqazda yeni siyasi və iqtisadi reallıqların formalaşmasına səbəb olmuşdur. Regionun ümumi iqtisadi potensialının təqribən 60 faizinə sahib olan Azərbaycan iqtisadiyyatının Qarabağda həyata keçirəcəyi yenidənqurma və inkişaf layihələri beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Təxminən 30 il davam edən işğalın ardından Qarabağın azad olunması yalnız regional deyil, həm də qlobal miqyasda böyük rezonans doğurmuşdur. Müharibə dövründə Azərbaycan Silahlı Qüvvələrinin nümayiş etdirdiyi hərbi bacarıqlar, müasir texnologiyaların — o cümlədən Türkiyə istehsalı olan pilotsuz döyüş sistemlərinin effektiv tətbiqi və əsgərlərin qəhrəmanlığı, həmçinin Prezident, Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasi rəhbərliyi beynəlxalq media və ekspert dairələrinin geniş marağına səbəb olmuşdur. Nəticə etibarilə, Azərbaycan postmünaqişə dövründə qalib ölkə statusu ilə regional və beynəlxalq səviyyədə yeni bir mövqeyə sahib olmuşdur.

İşğaldan azad edilmiş ərazilərdə dövlət idarəçiliyi sisteminin bərpa olunması, Suqovuşan bölgəsindəki turizm və hidroresursların istifadəyə verilməsi, regionda yol-nəqliyyat infrastrukturunun yenidən qurulması və Xudafərin su anbarlarının hidroenergetika və meliorasiya məqsədilə istifadəsi kimi iqtisadi yönümlü tədbirlər hazırda prioritet istiqamətlər sırasındadır. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Füzuli–Şuşa istiqamətində 101 kilometrlik avtomobil yolunun inşası üçün maliyyə vəsaitinin ayrılması da

bu prosesin mühüm tərkib hissəsini təşkil edir. Qarabağ bölgəsində hərbi qüvvələrin tamamilə çıxarılmasından sonra burada həyata keçirilən bu cür təşəbbüslər regionun iqtisadi dirçəlişinə ciddi təkan verəcək və yaxın gələcəkdə bu ərazilərin yenidən Cənubi Qafqazın inkişaf edən mədəniyyət mərkəzlərindən və turizm destinasiya nöqtələrindən birinə çevrilməsi ehtimalını gücləndirir.

**Əsas hissə**

**1. Qarabağ: Tarix və Gerçəklik**

Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan Qarabağ bölgəsi ölkənin etnogenezində, tarixi inkişafında və mədəni irsinin formalaşmasında mühüm yer tutmuşdur. Təbii şəraitinə görə Qarabağ iki əsas relyef qurşağına – düzənlik və dağlıq (Yuxarı Qarabağ) zonalara bölünür. Coğrafi baxımdan bu ərazi, 1923–1991-ci illərdə mövcud olmuş keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) 4.400 kvadrat kilometr sahəsini xeyli dərəcədə üstələyən daha geniş ərazini əhatə edir. Tarixi baxımdan, 1920-ci illərin sonlarında sovet hakimiyyəti tərəfindən Ermənistana verilmiş Zəngəzur bölgəsi də qədim Qarabağ vilayətinin qərb hissəsinə daxil olmuşdur.

Tarixi Qarabağ bölgəsi bəşəri sivilizasiyanın formalaşdığı ərazilərdən biri kimi tanınır. Bu ərazidə aparılmış arxeoloji tədqiqatlar nəticəsində paleolit dövrünə aid Azıx, Tağlar və Zar mağara düşərgələri, eneolit dövrünə aid Çalağantəpə və Leylatəpə kimi yaşayış yerləri, eləcə də ilk tunc dövrünə aid Xankəndi, Üçoğlan, Göytəpə və Qarahacılı abidələri aşkarlanmışdır. Orta və son tunc dövrlərinə aid Üzərliktəpə, Xocalı, Qarabulaq abidələri, antik dövrə və erkən orta əsrlərə aid Covurqala kimi nümunələr bölgənin uzunmüddətli tarixi inkişafını əks etdirir. 1960-cı ildə Azərbaycan arxeoloqları tərəfindən kəşf edilmiş Azıx mağarasında Quruçay, Aşel və Mustye arxeoloji mədəniyyətlərinə aid izlər aşkar olunmuş və bu ərazidə qədim insan məskənlərinin mövcudluğu sübuta yetirilmişdir. Sovet dövründən etibarən aparılan elmi tədqiqatlar Qarabağ regionunun Azərbaycan tarixinin və mədəniyyətinin ayrılmaz tərkib hissəsi olduğunu elmi əsaslarla təsdiqləyir.

Tarixi yazılı mənbələr Qarabağ bölgəsinin qədim dövrlərdən etibarən Azərbaycan ərazisi olduğunu və bu torpaqların Qafqaz Albaniyasının tarixi sərhədlərinə daxil olduğunu göstərir. Mövcud elmi araşdırmalar Qarabağın heç zaman Ermənistanın inzibati-siyasi tərkibində olmadığını, bölgənin əhalisinin isə yalnız daha sonrakı dövrlərdə müəyyən erməniləşmə proseslərinə məruz qaldığını təsdiqləyir. Qafqazın qədim tarixi ilə məşğul olan bir sıra neytral və obyektiv tədqiqatçılar – o cümlədən erməni əsilli alimlər İ. Orbeli, C. Yeremyan və digərləri də bu məqamları öz elmi əsərlərində qeyd etmişlər (Минорский, 1963; Орбели, 1963; Еремян, 1958).

Qarabağ bölgəsi eramızdan əvvəl IV əsrdən eramızın VIII əsrinə qədər Qafqaz Albaniyasının tərkibində olmuşdur. Daha sonrakı dövrlərdə, VIII–XII əsrlərdə bölgə Sacilər, Salarilər, Rəvvadilər, Səlcuqilər imperiyası və Atabəylər (Eldənizlər) kimi müxtəlif dövlətlərin hakimiyyəti altında idarə olunmuşdur. XIII–XV əsrlərdə isə Qarabağ Elxanilər (Hülakilər), Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olmuş, 1501–1736-cı illərdə isə Səfəvilər imperiyasına daxil edilmişdir. 1747–1821-ci illər arasında bölgədə müstəqil Qarabağ xanlığı mövcud olmuşdur. Qeyd edilən bütün bu siyasi qurumlar tarixi Azərbaycan dövlətləri kimi tanınır və Qarabağın uzunmüddətli olaraq Azərbaycan siyasi və mədəni məkanının bir hissəsi olduğunu göstərir.

1805-ci ildə Rusiya qoşunlarının komandanı P. Sisianov ilə Qarabağ xanı İbrahimxəlil xan arasında imzalanan Kürəkçay müqaviləsi nəticəsində Qarabağ xanlığı Rus imperiyasının tərkibinə daxil olmuşdur (http://www.hrono.ru). Bu müqavilə müstəqil dövlət olan Qarabağ xanlığı ilə Rusiya hərbi komandanlığı arasında bağlanmışdı və həmin müqavilənin mətnində ermənilərin adı belə çəkilmir. Qarabağ xanlığı çar Rusiyası tərəfindən işğal edildikdən sonra "Qarabağ" adı ilkin inzibati və siyasi mahiyyətini itirərək, coğrafi vahid kimi Yelizavetapol quberniyasına tabe olmuş və bu ərazi 4 qəzaya – Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarına bölünmüşdür. Cənubi Qafqazın Rusiyanın tərkibinə daxil olmasından sonra, çarizm Azərbaycanda etnokonfessional dayaq yaratmaq məqsədilə Türkiyədən və İrandan Şimali Azərbaycana köçürülmüş ermənilərin bir qismini keçmiş Qarabağ xanlığının ərazisinə yerləşdirmişdir. 1836-cı ildə Rus sinodunun qərarı ilə Alban kilsəsi ləğv edildikdən sonra erməni millətçiləri Qarabağda albanların zəngin mənəvi, tarixi, mədəni və memarlıq irsini erməniləşdirməyə müvəffəq olmuşdular. Lakin albanlar uzun müddət erməniləşməyə qarşı mübarizə aparmış və onların etnik-dini yaddaşında, öz tarixi kökləri ilə bağlı xatirələr silinməmişdir

(http://udi.az). Alban mənşəli filosof və din xadimi P. Florenski qeyd edirdi: "Qarabağ erməniləri əslində erməni deyil, xüsusi tayfadırlar. Qədimdə onlar alban adlanırdılar, özlərinə məxsus dillərini və adətlərini qorumuşdular" (Флоренский, 1992). Hazırda həm Qarabağın dağlıq hissəsində, həm də işğal olunmuş ərazilərdə mövcud olan özünəməxsus Alban memarlığı məbədlərinin hamısı (son yüz ildə tikilənlər istisna olmaqla) Alban dövrünün yadigarıdır.

Sovet hakimiyyəti dövründə ermənilər yenidən Qarabağ məsələsini gündəmə gətirə bildilər. Hətta 1921-ci ilin mayında Ermənistan Sovet hökuməti, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında birtərəfli qərar qəbul etdi (Брутенц, 2005). 1923-cü il iyulun 7-də isə Sovet hakimiyyəti, Qarabağın yuxarı hissəsində yaşayan ermənilərə süni şəkildə muxtariyyət hüququ verərək, onların üçün qondarma milli-inzibati ərazi vahidi – Dağlıq Qarabağ Muxtar Vilayətini yaratdı. Bu qərar, sonradan Azərbaycan-Ermənistan münasibətlərindəki əsas münaqişə mövzusu olan Dağlıq Qarabağ münaqişəsinin başlanğıcı oldu. Sovet hökumətinin həyata keçirdiyi 70 illik siyasət nəticəsində ermənilər, Dağlıq Qarabağ Muxtar Vilayətində etnik-siyasi üstünlük qazanmışdılar.

1980-ci illərin sonları və 1990-cı illərin əvvəllərində ermənilərin Qarabağda əsassız torpaq iddiaları və SSRİ-nin dağılması nəticəsində Ermənistanın silahlı təcavüzü, Azərbaycanın 20 faiz torpağını itirməsinə səbəb olan müharibəyə çevrildi. 1992-ci ilin 26 fevralında erməni silahlı qüvvələri, Rusiyanın 366-cı alayının dəstəyi ilə Azərbaycanın Xocalı şəhərində soyqırımı həyata keçirdilər. Bu qırğında 613 nəfər vətəndaş öldürüldü, 421 nəfər yaralandı, 1275 nəfər isə əsir götürüldü (20). 1991-1994-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində Qarabağ və ətraf rayonlar olan Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Qubadlı, Zəngilan və Cəbrayıl işğal olundu. Bu müddət ərzində 20 min azərbaycanlı həlak oldu, 4866 nəfər itkin düşdü, girov götürüldü və 100 min nəfərdən çox insan yaralandı, 50 min nəfər isə əlil oldu. Hərbi təcavüz nəticəsində 900 yaşayış məntəqəsi, 130939 ev, 2389 sənaye və kənd təsərrüfatı obyekti, 1025 təhsil müəssisəsi, 798 səhiyyə ocağı və 1510 mədəniyyət qurumu dağıdıldı. İlkin hesablamalara görə, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan iqtisadiyyatına 300 milyard ABŞ dollarından çox ziyan dəydi.[2] İşğal altındakı ərazilərdə Azərbaycan xalqına məxsus mədəniyyət obyektləri, muzeylər, kitabxanalar və mədəniyyət müəssisələri amansızcasına məhv edilib. Ermənilərin işğal etdiyi ərazilərdə 547 memarlıq abidəsi, o cümlədən 6 dünya əhəmiyyətli, 393 ölkə və 149 yerli əhəmiyyətli memarlıq obyekti, 205 arxeoloji abidə, o cümlədən 7 dünya əhəmiyyətli abidə, 403 tarixi abidə və 22 muzey məhv edilib (https://azerbaijan.az/). Ermənilər, işğal etdikləri ərazilərdə xalqımıza aid olan tarixi, mədəni və dini abidələri dağıdaraq, ya saxtalaşdıraraq öz adlarına çıxarmışdılar. Azərbaycan türk mənşəli toponimlərinin geniş şəkildə erməniləşdirilməsi, erməni vandalizminin başqa bir forması idi.

1992-ci ildə münaqişənin həlli məqsədilə Minsk qrupu yaradıldı, amma bu təşkilat fəaliyyət göstərdiyi müddət ərzində münaqişənin həlli ilə bağlı heç bir konkret addım ata bilmədi. 1994-cü il mayın 12-də Rusiya, Qırğızıstan və MDB Parlament Asambleyasının vasitəçiliyi ilə Bişkekdə Azərbaycan və Ermənistan arasında atəşkəs sazişi bağlandı, lakin Ermənistanın qeyri-konstruktiv mövqeyi səbəbindən münaqişənin həlli mümkün olmadı. Azərbaycan dövlətinin apardığı fəal xarici siyasət nəticəsində dünya birliyi, Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropa Birliyi (AB), İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Avropa Şurası (AŞ), NATO, GUAM və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi hesab edirlər. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Qarabağ münaqişəsi ilə bağlı 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etdi və Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından dərhal və şərtsiz çıxmasını tələb etdi, amma bu tələblər yerinə yetirilmədi (https://2001-2009.state.gov). 2008-ci ilin martında BMT Baş Məclisi 39 dövlətin dəstəyi ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət haqqında" qətnamə qəbul etdi və erməni qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və tam çıxarılmasını tələb etdi (https://www.refworld.org). Lakin ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ, Rusiya və Fransa qətnaməyə qarşı səs verdilər. Bu dövlətlərin münaqişəyə ikili standartlarla yanaşması və Ermənistana qarşı susqunluğu, ermənilərə Azərbaycan torpaqlarını 30 il işğalda saxlamağa imkan verdi. Bu müddət ərzində Ermənistan status-kvonu qoruyub saxlamaqla, işğal etdiyi ərazilərdə möhkəmlənir və Azərbaycan əleyhinə təxribatlar

törətməyə davam edirdi. Bu təxribatlardan biri 2020-ci ilin iyulunda Ermənistan-Azərbaycan sərhədinin Tovuz hissəsində baş verdi. 2020-ci ilin sentyabrın 27-də Ermənistanın növbəti təxribatına cavab olaraq Azərbaycan ordusu əks-hücuma keçərək işğal altındakı əraziləri və strateji əhəmiyyətli Şuşa şəhərini azad etdi.

**2. Qarabağın Iqtisadi və Turizm Potensialı**

Azərbaycanın Qarabağ bölgəsi, dünyanın ən qədim insan məskənlərindən biri olmaqla yanaşı, həm də mədəniyyətin inkişaf etdiyi mühüm bölgələrdən biridir. Ərazinin əlverişli təbii-coğrafi şəraiti, şirin su qaynaqları, zəngin bitki və heyvan aləmi ilə birlikdə Azıx mağarası kimi təbii abidələrin mövcudluğu qədim dövrlərdən bu ərazidə ibtidai insanların məskən salmasına şərait yaratmışdır. Qarabağda, həmçinin Şuşa şəhəri kimi qədim tarixi olan mərkəzlər, Xocalı, Xankəndi, Xocavənd və digər qədim yaşayış məskənləri, həmçinin Ağdam, Ağdərə, Hadrud kimi inkişaf etmiş rayonlar mövcuddur. Bu ərazi, mədəni və tarixi zənginlikləri ilə xüsusilə diqqət çəkir.

Qarabağ və erməni işğalından azad olunmuş digər yeddi rayon, müstəqil Azərbaycan Respublikasının tərkib hissəsi kimi iqtisadi inkişaf baxımından ölkənin digər regionları ilə sıx inteqrasiya içində olmuşdur. Bu bölgə, müasir sənaye, çoxcəhətli kənd təsərrüfatı və geniş sosial strukturla təchiz olunmuş yüksək inkişaf etmiş iqtisadi regionlardan biri idi. 30 il öncəsində Qarabağ iqtisadiyyatının inkişafında coğrafi mövqe, təbii sərvətlər və insan resursları mühüm rol oynamışdır.

SSRİ-nin çöküşünədək olan dövrdə, Dağlıq Qarabağ iqtisadi rayonu təbii ehtiyatlar hesabına mühüm inkişaf göstəriciləri əldə etmişdir. Bu dövr ərzində, burada yaradılmış nəqliyyat və infrastruktur şəraiti ilə yanaşı, energetika, dağ-mədən sənayesi, kənd təsərrüfatı, emal sənayesi, meşə təsərrüfatı, balıqçılıq və turizm sahələrində mühüm layihələr həyata keçirilmişdir. Sovet dövründə Qarabağ, Azərbaycanın ümumi əhalisinin təxminən 2 faizini və ərazisinin 5 faizini təşkil edirdi. Regionda istehsal olunan kənd təsərrüfatı məhsullarının 5 faizi və sənaye məhsullarının 3 faizi burada istehsal olunurdu.

Qarabağ, həmçinin emal sənayesi və sənətkarlıq sahəsində, xüsusən dünya çapında tanınan xalçaçılıq ilə məşhur idi. O dövrdə Qarabağ adı, bu sahələrdə beynəlxalq bir marka halına gəlmişdi. Bu və digər sahələrin yanında, Qarabağ həmçinin öz bənzərsiz turizm potensialı, kurort və sanatoriya müəssisələri, həmçinin qorunan təbii və rekreasiya sahələri ilə səyahətçilərin maraq dairəsində idi (Hüseynov, 2018).

Qarabağ turizm baxımından zəngin təbii resurslara və unikal iqlim şəraitinə malikdir (https://www.virtualkarabakh.az). Ərazinin əsas hissəsini Qarabağ silsiləsi təşkil edir. Şuşa yaylası və onun ətrafındakı Daşaltı kanyonu, yüksəklik mövqeyi ilə əhatələnmiş və möhtəşəm mənzərəyə sahibdir. Qarabağın iqlimi çoxşaxəlidir. Bölgənin aşağı ərazilərində quru subtropik, dağlıq hissələrində isə mülayim dağ iqlimi hökm sürür. Yağıntının miqdarı isə ildə 300-800 mm arasında dəyişir.

İşğaldan əvvəl bölgədə suvarma və dəmyə əkinçiliyi, bağçılıq və heyvandarlıq sahələri yaxşı inkişaf etmişdi. Bölgədən bol sulu çaylar, o cümlədən Tərtərçay, Xaçınçay, Qarqarçay, Köndələnçay, Qunıçay kimi çaylar axır. Tərtər çayı üzərindəki Sərsəng su anbarı suvarma və enerji istehsalı üçün böyük əhəmiyyət daşıyır. Qarabağın ən mühüm təbii sərvətlərindən biri meşələrdir. Burada Azərbaycanın böyük meşə ehtiyatları mövcuddur. Palıd, vələs və fısdıq meşələri ağac emalı sənayesinin inkişafı üçün əlverişlidir. İşğal dövründə ermənilər bu nadir və qiymətli ağac növlərini, digər sərvətlərimiz kimi, talamışdılar. Qarabağın təbii sərvətləri arasında Kəlbəcərin və Zəngilanın qızıl ehtiyatları, polimetal filiz yataqları, müxtəlif tikinti materialları, çox zəngin mərmər yataqları, civə, əhəngdaşı, sement xammalı, qum və çınqıl kimi ehtiyatlar var ki, bunlar da işğal zamanı ermənilər tərəfindən talanmışdı (http://thelondonpost.net).

Şuşa şəhəri Azərbaycanın ən nüfuzlu mədəniyyət mərkəzlərindən biri idi. Bu şəhər özünün nadir gözəlliyi ilə yanaşı, təbii qala forması ilə də seçilirdi. Şuşanın yaxınlığındakı Turşsu, Şırlan və digər mineral sular çoxsaylı turistləri cəlb edirdi. Eyni zamanda, Şuşa yaxınlığında yerləşən İsa bulağı, Qarabağa gələn turistlər üçün ən populyar istirahət məkanlarından biri olmuşdur. Şuşa, Azərbaycan musiqisinin beşiyi olaraq da tanınırdı və burada böyük sənət ustaları Üzeyir Hacıbəyov və Bülbülün vətəni yerləşirdi. O dövrün Şuşasında məscid, diyarşünaslıq muzeyi, musiqi məktəbi, musiqi alətləri fabriki, pedaqoji institut, sanatoriyalar, turizm mərkəzi, şairlər Vaqif və Nəvvabın məzarları, Şuşanın qala divarları, xan qızı Natəvanın evi və digər bir çox tarixi abidələr mövcud idi.[8]

XX əsrin 30-cu illərində Şuşada kurort məqsədilə istirahət evləri fəaliyyətə başlamış, daha sonra isə burada sanatoriyalar və pansionatlar fəaliyyət göstərmişdir. Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı və məşhur "Cıdır düzü" bu bölgəyə gələn turistlər üçün sevimli yerlərə çevrilmişdi. Eyni zamanda, Xankəndi, Ağdam və Kəlbəcər ərazilərində də turistlər üçün müxtəlif asudə vaxt keçirmə imkanları mövcud idi. Ağdamdakı çörək muzeyi və məscid də turizm baxımından mühüm əhəmiyyət kəsb edirdi. O dövrün sosial və mədəni infrastrukturu da turistlərin tələblərinə uyğun olaraq qurulmuş və bölgənin turizm potensialını beynəlxalq səviyyəyə çatdırmışdı. 70-80-ci illərdə, bütün Azərbaycanda olduğu kimi, Qarabağda da turizm sektoru ən yüksək inkişaf səviyyəsinə çatmışdı. Bölgədə çoxsaylı kurortlar, sanatoriyalar və mədəniyyət müəssisələri fəaliyyət göstərir, müxtəlif yerləşdirmə müəssisələrində çox sayda yataq yerləri mövcud idi. Məsələn, 1987-ci ildə Azərbaycana xarici ölkələrdən 50 min turist gəlmiş, SSRİ-nin müxtəlif bölgələrindən isə 250 min turist ziyarət etmişdir. Həmçinin, daxili turistlərin təşkil etdiyi turlara qatılan 2,5 milyon nəfərdən əhəmiyyətli bir hissəsi məhz Qarabağda olmuşdur. Lakin, 1988-ci ildən başlayaraq Ermənistanın hərbi təcavüzü nəticəsində, yalnız Qarabağda deyil, həmçinin digər bölgələrdə də daxili və gəlmə turizm ciddi zərər görmüşdür, çünki orada yerləşdirilən qaçqınlar ölkənin kurort-sanatoriya müəssisələrinə yerləşdirilmişdi (Məmmədov, Soltanova, Rəhimov, 2005).

**Nəticə**

Turizm sülh və sabitliyin nəticəsi olaraq, rahat yaşayışın və sosial rifahın vacib bir hissəsidir. Bu səbəbdən Qarabağın azad edilməsi XXI əsrin ən önəmli hadisələrindən biri kimi tarixə düşdü və bu torpaqda turizmin inkişafı, bölgədə humanitar inkişafın əldə edilməsi baxımından mühüm bir töhfə verəcəkdir. Uzun illər terror və təhlükənin mənbəyi olan bu ərazidə turizmin inkişafı, sosial-iqtisadi, mədəni həyatda və beynəlxalq münasibətlərdə böyük əhəmiyyət kəsb edəcək. Bu nəticələr aşağıdakı kimi sıralana bilər:

- İşğal sonrası Qarabağda turizmin inkişafı Cənubi Qafqazın uzunmüddətli sülhü üçün təminat yaradacaq;
- Dağıdılmış turizm infrastrukturu Qarabağın bərpası üçün böyük bir iqtisadi stimullaşdırıcı effekt yaradacaq;
- Qarabağda turizmin inkişafı, burada məhv olmuş maddi və mədəni irsin bərpası üçün mühüm bir vasitə olacaq;
- Turizmin inkişafı Qarabağda Azərbaycanın qeyri-neft sektoruna əhəmiyyətli bir töhfə verəcək;
- Qarabağda turizmin inkişafı yeni nəqliyyat və kommunikasiya xətləri inşa ediləcək, bu da Naxçıvan Muxtar Respublikasının Azərbaycanla birləşdirilməsindən sonra yeni turizm marşrutlarının yaradılmasına şərait yaradacaq;
- Turizmin inkişafı Qarabağda, Ermənistanın Cənubi Qafqaz bölgəsində yaratdığı riskli bölgə qorxusunun aradan qaldırılmasına böyük təsir göstərəcək;
- Qarabağda turizmin inkişafı, işğal dövründə Azərbaycanın uğradığı maddi və mənəvi zərərlərin əvəzinin ödənilməsi üçün ciddi bir arqument olacaq.
- 

## ƏDƏBİYYAT SİYAHISI:

1. Andrew Korybko. The significance of the Nagorno-Karabakh peace deal. https://news.cgtn.com/news/2020-11-11/Thesignificance-of-the-Nagorno-Karabakh-peace-deal-Vk8eCdxSrm/index.htmlStatement by the President of the Republic of Azerbaijan, Prime Minister of the Republic of Armenia and President of the Russian Federation. https://en.president.az/articles/45923/print
2. Акты собранные Кавказскою Археографическою комиссиею. Том II. Тифлис, 1868 г., с. 705 http://www.hrono.ru/dokum/1800dok/18050514kara.htmlArmenian Vandalizm: Azerbaijani Monuments in Captivity. General information https://www.armenianvandalism.az/en_general.html
3. Armenians take absolutely everything with them, even toilet bowls: BBC report from Kalbajar. https://www.youtube.com/watch?v=MAe_1cA_jPc&feature=youtu.be
4. Armenians completely destroy cemetery in Fuzuli district. https://www.azernews.az/karabakh/172934.html
5. Bakı: "Mütərcim", 2002. - 512 s. https://ebooks.azlibnet.az/book-DnQxaJNW.html
6. Brief information on material and moral damage caused to Azerbaijan culture as a result of the Armenia-Azerbaijan conflict https://azerbaijan.az/ru/related-information/127

7. Chris Devonshire-Ellis. Nagorno-Karabakh Resolution Will Give Turkey Direct Access To Azerbaijan. https://www.silkroadbriefing.com/news/2020/11/16/nagorno-karabakh-resolution-will-give-turkey-direct-accessto-azerbaijan/David Hambling. The 'Magic Bullet' Drones Behind Azerbaijan's Victory Over Armenia. https://www.forbes.com/sites/davidhambling/2020/11/10/the-magic-bullet-drones-behind--azerbaijans-victoryover-armenia/?sh=5982e4c45e57

8. D.Y. Ismailov. History of Azerbaijan, AzMİU NPM, Baku, 2017, p.p.352 http://anl.az/el/Kitab/2018/02/cd/i-44365.pdf

9. Məmmədov J.A., Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq turizmin coğrafiyası (dərs vəsaiti), Azərbayjan dilində. Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 17 noyabr 2020. https://president.az/articles/46989

10. Azerbaijan: Armenians turned Aghdam into ruined city. https://www.aa.com.tr/en/azerbaijan-front-line/azerbaijanarmenians-turned-aghdam-into-ruined-city/2051825

11. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, Bakı, 2000, s. 8-22

12. Hâr-ı Bülbül çiçeği nedir? Sadece Şuşa'da yetişiyor! https://www.hurriyet.com.tr/gundem/har-i-bulbul-cicegi-nedirsadece-susada-yetisiyor-41657341

13. Нагорный Карабах в 1918-1923 гг.: Сборник документов и материалов / Отв. Ред. В.А.Микаэлян. Ереван: АН Армении, 1992, с.323-326

**Safar Hasan PURHANI**
**Doctor of Economic Sciences, Prof.,**
Western Caspian University
E-mail:sefer.purhani@wcu.edu.az

**Anvar Akif AGHAYEV**
Western Caspian University, Master's student
E-mail:anvar.aghayev@gmail.com

## TOURISM HISTORY OF KARABAKH

### Summary

The Republic of Azerbaijan has long been considered one of the most attractive destinations for tourism in the South Caucasus region due to its favorable geographical location, rich natural resources, and cultural diversity. However, separatist movements and military provocations carried out by Armenia in the late 20th and early 21st centuries had a significant negative impact on the country's overall socio-economic development, including its tourism sector. This article explores the development of tourism potential in the post-conflict period in Nagorno-Karabakh and the seven surrounding administrative districts that were under Armenian occupation between 1990 and 2020. It is worth noting that during the Soviet era, Nagorno-Karabakh was regarded not only as a major tourism center of Azerbaijan but also as one of the most important international tourism destinations in the entire South Caucasus. The counter-offensive operation launched by the Azerbaijani Armed Forces in September 2020, which resulted in the liberation of the occupied territories, laid the foundation for reassessing and reviving the region's tourism potential. The article also analyzes the reconstruction of tourism infrastructure in the region, the development of various types of tourism, and the existing opportunities in this direction.

**Keywords**: Tourism; Post-Occupation Tourism in Karabakh; Republic of Azerbaijan, Armenian Occupation

**Сафар Хасан ПУРХАНИ**
**Доктор экономических наук, профессор,**
Западно-Каспийский университет
E-mail:sefer.purhani@wcu.edu.az

**Анвар Акиф АГАЕВ**
Западно-Каспийский университет, магистр
E-mail:anvar.aghayev@gmail.com

# ТУРИСТИЧЕСКАЯ ИСТОРИЯ КАРАБАХА

**Резюме**

Республика Азербайджан на протяжении долгого времени рассматривалась как одно из самых привлекательных туристических направлений в регионе Южного Кавказа благодаря своему благоприятному географическому положению, богатым природным ресурсам и культурному многообразию. Однако сепаратистские движения и военные провокации, осуществлённые Арменией в конце XX — начале XXI века, нанесли серьёзный ущерб общему социально-экономическому развитию страны, в том числе туристической отрасли. В данной статье рассматриваются вопросы развития туристического потенциала в постконфликтный период на территории Нагорного Карабаха и семи прилегающих административных районов, находившихся под оккупацией Армении в 1990–2020 годах. Следует отметить, что в советский период Нагорный Карабах считался не только важным туристическим центром Азербайджана, но и одним из ключевых международных туристических направлений всего Южного Кавказа. Контрнаступательная операция, начатая Вооружёнными Силами Азербайджана в сентябре 2020 года и завершившаяся освобождением оккупированных территорий, создала прочную основу для переоценки и возрождения туристического потенциала региона. В статье также проанализированы вопросы восстановления туристической инфраструктуры, развития различных видов туризма и существующие возможности в данном направлении.

**Ключевые слова**: Туризм; Туризм в Карабахе после оккупации; Азербайджанская Республика, Армянская оккупация